Danimarka

# SIĞINACAQ VƏ MİQRASİYA İDARƏETMƏSİ QAYDALARI HAQQINDA BİLMƏLİ OLDUQLARINIZ

Tip A

## BEYNƏLXALQ HİMAYƏ ÜÇÜN MÜRACİƏT EDƏN ŞƏXSLƏR




AZERBAIJAN

# MÜNDƏRİCAT

Bu kitabça sizə nə üçün verilir? 3

Beynəlxalq himayə nədir və ondan kim yararlana bilər? 3

Sığınacaq və Miqrasiya İdarəetməsi Qaydaları nədir? 4

Ərizənizi hansı Aİ+ ölkəsinin nəzərdən keçirəcəyi ilə bağlı qərarı gözləyərkən hüquqlarınız 5

Ərizənizi hansı Aİ+ ölkəsinin nəzərdən keçirəcəyi ilə bağlı qərarı gözləyərkən harada qalmalısınız? 7

Bu prosesdən keçdiyinizdə sizdən nə gözlənilir? 7

Hansı sənədləri təqdim etməlisiniz? 8

Barmaq izlərinizi və fotoşəklinizi nə üçün təqdim etməlisiniz? 9

Öz vəzifələrinizi yerinə yetirmədiyiniz halda nəticələr nə olacaq? 10

Saxlanılma nə deməkdir? 11

Səlahiyyətli orqanlar ərizənizi hansı Aİ+ ölkəsinin nəzərdən keçirəcəyinə necə qərar verirlər? 12

Ərizənizi hansı Aİ+ ölkəsinin nəzərdən keçirəcəyini daha yaxşı anlamaq üçün sizinlə müsahibə aparıla bilər 15

Müsahibə həmişə keçirilirmi? 17

Başqa bir Aİ+ ölkəsində ailənizin olduğunu sübut etmək üçün hansı dəlilləri təqdim edə bilərsiniz? 18

Bu proses nə qədər vaxt aparacaq? 19

Əgər başqa bir Aİ+ ölkəsinə beynəlxalq himayə üçün artıq müraciət etmisinizsə, nə olacaq? 20

Qərar verildikdən sonra nə baş verir? 21

Apellyasiya şikayətinin verilməsi prosesi haqqında bilməli olduqlarınız (dayandırıcı təsir və mahiyyəti üzrə baxılma eyni vaxtda tətbiq edildiyi hallarda) 22

Hansı şəxsi data toplanılacaq? 24

Şəxsi datanıza aid hansı hüquqlarınız var? 24

## BU KİTABÇA SİZƏ NƏ ÜÇÜN VERİLİR?

Siz 31 Aİ+ ölkəsindən birinə beynəlxalq himayə (həmçinin sığınacaq kimi tanınır) üçün müraciət etmisiniz. Bu deməkdir ki, siz hazırda beynəlxalq himayə üçün müraciət edən şəxssiniz. Ola bilsin ki, ərizənizi nəzərdən keçirməkdən başqa bir Aİ+ ölkəsi məsuldur. İndi siz həmin qərarı gözləyirsiniz.

Aİ+ ölkələrinin necə əməkdaşlıq etdiyini anlamaq vacibdir, çünki bu, müraciətinizi hansı ölkənin nəzərdən keçirəcəyinə təsir edə bilər.

Bütün lazımi məlumatları bu kitabçada tapacaqsınız.

## BEYNƏLXALQ HİMAYƏ NƏDİR VƏ ONDAN KİM YARARLANA BİLƏR?



Təqibdən qorxduğunuz və ya ciddi zərər riski ilə üzləşdiyiniz üçün ölkənizə qayıda bilmirsinizsə, beynəlxalq himayəyə ehtiyacınız ola bilər. Bu deməkdir ki, məsələn, həyatınız və ya azadlığınız təhlükədə ola bilər və ölkənizin səlahiyyətli orqanları sizi üzləşdiyiniz təhlükədən qorumayacaq.

Beynəlxalq himayə haqqında daha ətraflı məlumatı ayrı kitabçadan alacaqsınız.

**Hazırda siz Danimarka, bu, Aİ+ ölkələrindən biridir.**
**Aİ+ ölkələrinə daxildir:**

Avropa İttifaqına (Aİ) üzv olan 27 dövlət: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və

digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç.

# SIĞINACAQ VƏ MİQRASİYA İDARƏETMƏSİ QAYDALARI NƏDİR?




Aİ+ ölkələri "Sığınacaq və Miqrasiya İdarəetməsi Qaydaları" (AMMR) adlı ortaq qanun üzərində razılığa gəliblər. Bu qanun, beynəlxalq himayə üçün ərizələri nəzərdən keçirməkdən hansı ölkənin məsul olduğuna qərar verməyə kömək edir. Həmçinin bir ölkə eyni anda çox sayda ərizə aldıqda, bu qanun Aİ+ ölkələrinə bir-birinə kömək etməyə imkan verir.

Ərizənizin Aİ+ ölkələrindən biri tərəfindən nəzərdən keçiriləcəyinə zəmanət verilir, lakin hansı Aİ+ ölkəsinin buna görə məsul olacağını özünüz seçə bilməzsiniz. Ərizənizi nəzərdən keçirəcək ölkənin seçimi ilə bağlı qərar AMMR qanununa uyğun olaraq veriləcək.

Bu kitabçada başa düşmədiyiniz bir məqam varsa, immiqrasiya məmurundan soruşa bilərsiniz.



Hazırda Aİ+ ölkələri sadəcə ərizənizi nəzərdən keçirməkdən hansı ölkənin məsul olduğuna qərar verirlər.

Ərizənizin nəzərdən keçirilməsindən başqa bir Aİ+ ölkəsinin məsul olduğuna qərar verilərsə, siz həmin ölkəyə transfer ediləcəksiniz.

## ƏRİZƏNİZİ HANSI Ai+ ÖLKƏSİNİN NƏZƏRDƏN KEÇİRƏCƏYİ İLƏ BAĞLI QƏRARI GÖZLƏYƏRKƏN HÜQUQLARINIZ



Beynəlxalq himayə üçün ilk dəfə müraciət edirsinizsə, pulsuz **hüquqi məsləhət** almağa hüququnuz var. Bunu istənilən vaxt səlahiyyətli orqanlardan tələb edə bilərsiniz.

Hüquq məsləhətçisi hüquqlarınız barədə sizə məlumat verəcək və proses boyu sizə dəstək verəcək. Hüquq məsləhətçisini tutmaq üçün artıq pul ödəmisinizsə, səlahiyyətli orqanlar sizi pulsuz hüquqi məsləhətlə təmin etməyə bilərlər. Hüquqi məsləhət qrup şəklində verilə bilər, lakin məsləhətçi şəxsi məlumatlarınızı başqa insanlarla paylaşmayacaq.

Hüquq məsləhətçisini tələb etmək üçün səlahiyyətli orqanlara müraciət edə bilərsiniz Səlahiyyətli organlardan Danimarkada sığınacaq axtaranların və qaçqınların hüquqları üçün işləyən özəl humanitar təşkilat olan Danimarka Qaçqınlar Şurasının əlaqə məlumatlarını öyrənə bilərsiniz.

Siz həmçinin DRC Danimarka Qaçqınlar Şurası ilə 3373 5020 nömrəsi ilə və ya advice@drc.ngo yazarag əlaqə saxlaya bilərsiniz. DRC Danimarka Qaçqınlar Şurası böyük ehtimalla Sandholm Mərkəzinidə mövcuddur.

DRC Danimarka Qaçqınlar Şurası sığınacaq axtaran şəxslərə sığınacaq proseduru boyunca pulsuz və qərəzsiz hüquqi məsləhət təklif edir. Proses və hüquqlarınızla bağlı suallarınız varsa, DRC Danimarka Qaçqınlar Şurası ilə əlaqə saxlaya bilərsiniz. Siz həmçinin DRC Danimarka Qaçqınlar Şurasının məsləhətləri haqqında https://asyl.drc.ngo/ saytında oxuya bilərsiniz.



Vəziyyətiniz barədə danışmaq daha asan olacaqsa, tərcüməçinin və məsələnizə baxan məmurun kişi və ya qadın olmasını tələb edə bilərsiniz. Səlahiyyətli orqanlar istəyinizə mümkün qədər hörmətlə yanaşacaqlar.



Həmçinin, ərizənizi nəzərdən keçirəcək Aİ+ ölkəsinin müəyyən edilməsi prosesi ilə bağlı yenilənmiş məlumatın verilməsini tələb etmək hüququnuz var. Yenilənmiş məlumatın verilməsini tələb etmək istəyirsinizsə, səlahiyyətli orqanlarla İmmiqrasiya Xidməti ilə əlaqə saxlamaq üçün: www.nyidanmark.dk/da/Kontakt-os/ müraciət edə bilərsiniz.üzərindən əlaqə saxlaya bilərsiniz.




Sizin sığınacaq verilməsi prosesinin istənilən mərhələsində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına (UNHCR) müraciət etmək hüququnuz var.

UNHCR sığınacaq axtaran şəxslərin və qaçqınların maraq və hüquqlarını qoruyur.

UNHCR-in əlaqə məlumatlarını və sığınacaq verilməsi prosesi ilə bağlı məlumatları UNHCR-in veb-səhifəsində tapa bilərsiniz: https://help.unhcr.org/.

**Alacağınız dəstək və xidmətlər haqqında əlavə məlumatları ayrı kitabçada tapa bilərsiniz.**

## ƏRİZƏNİZİ HANSI Aİ+ ÖLKƏSİNİN NƏZƏRDƏN KEÇİRƏCƏYİ İLƏ BAĞLI QƏRARI GÖZLƏYƏRKƏN HARADA QALMALISINIZ?



- Hazırda siz bu ölkədə qalmağa borclusunuz.
- Başqa bir Aİ+ ölkəsinə yalnız səlahiyyətli orqanlar tərəfindən icazə verildiyi təqdirdə səfər edə bilərsiniz.
- Əgər səlahiyyətli orqanlar ərizənizin başqa bir Aİ+ ölkəsi tərəfindən nəzərdən keçiriləcəyinə qərar verərlərsə, həmin ölkəyə səfərinizi səlahiyyətli orqanlar təşkil edəcəklər.

## BU PROSESDƏN KEÇDİYİNİZDƏ SİZDƏN NƏ GÖZLƏNİLİR?

Siz:

- ✓ Ərizəniz qeydə alınanadək bu ölkədə qalmalısınız.
- ✓ Əgər keçmişdə sizə viza və ya yaşayış icazəsi verilibsə, onu sizə verən ölkəyə çatdıqdan sonra orada sığınacaq verilməsi üçün müraciət etməlisiniz.
- ✓ Şəxsiyyətinizi təsdiq etmək üçün əlinizdə olan bütün sənədləri təqdim etməlisiniz.
  Əgər şəxsiyyətinizi təsdiq edən sənədiniz var idi, lakin artıq yanınızda deyilsə, yenə də səlahiyyətli orqanlara bildirməlisiniz ki, keçmişdə ölkənizdəki hökumət tərəfindən sizə belə bir sənəd verilmişdir.
- ✓ Başqa bir Aİ+ ölkəsinə səfər etdiyiniz bütün vaxtlar haqqında səlahiyyətli orqanlara məlumat verməlisiniz.
- ✓ Səlahiyyətli orqanlara Aİ+ ölkəsində icazə olmadan qaldığınızı bildirməlisiniz.
- ✓ Başqa bir Aİ+ ölkəsində olan yaxın qohumlarınız barədə səlahiyyətli orqanlara məlumat verməlisiniz.

**VACİBDİR!** Qanuna uyğun olaraq barmaq izlərinizi və fotoşəklinizi təqdim etməyə borclusunuz.

## HANSI SƏNƏDLƏRİ TƏQDİM ETMƏLİSİNİZ?

Yanınızda olan və aşağıdakılara aid bütün sənədləri səlahiyyətli orqanlarla paylaşın:




- şəxsiyyətinizə aid (doğum haqqında şəhadətnamə, pasport, şəxsiyyət vəsiqəsi)



- Aİ+ ölkələrində olan yaxın qohumlarınıza aid (rəsmi sənədlər, onlarla əlaqədə olduğunuzun sübutu)




- əvvəllər Aİ+ ölkələrində qaldığınıza aid (yaşayış icazəsi, viza əsasında və ya məktəb və ya universitet diplomunu almaq üçün).

Bu məlumatları mümkün qədər tez təqdim edin. Bu halda, ərizənizdən cavabdeh olacaq Aİ+ ölkəsini daha tez müəyyən etmək mümkündür.

## BARMAQ İZLƏRİNİZİ VƏ FOTOŞƏKLİNİZİ NƏ ÜÇÜN TƏQDİM ETMƏLİSİNİZ?



Bu ölkənin səlahiyyətli orqanları barmaq izlərinizi götürəcək və fotoşəklinizi çəkəcəklər. Bu data, şəxsiyyətinizə aid olan və digər müvafiq məlumatlarla birlikdə "Eurodac" adlı Avropanın ortaq verilənlər bazasına ötürüləcək.

Bu verilənlər bazası, məlumatlarınızı əldə etmək üçün datanızı emal edə bilən bütün 31 Aİ+ ölkəsi tərəfindən istifadə olunur. Başqa bir Aİ+ ölkəsinə icazə olmadan köçsəniz və yenidən barmaq izləriniz alınarsa, həmin ölkənin səlahiyyətli orqanları "Eurodac"da saxlanılan bütün datanızı görəcəklər.

"Eurodac" verilənlər bazası haqqında daha ətraflı məlumat ayrı bir kitabçada təqdim olunur.



# ÖZ VƏZİFƏLƏRİNİZİ YERİNƏ YETİRMƏDİYİNİZ HALDA NƏTİCƏLƏR NƏ OLACAQ?



Səlahiyyətli orqanlarla əməkdaşlıq etmədiyiniz halda bu, ərizənizə mənfi təsir göstərəcək.

Barmaq izlərinizi təqdim etməsəniz, səlahiyyətli orqanlar artıq Avropada sığınacaq verilməsində maraqlı olmadığınız qənaətinə gələ bilərlər. Onlar ərizənizi nəzərdən keçirməyi dayandıracaqlar, bu da artıq bu ölkədə qalmağa hüququnuzun olmadığını göstərəcək.

İcazə olmadan başqa bir Aİ+ ölkəsinə səfər etsəniz və ya başqa bir Aİ+ ölkəsində beynəlxalq himayə üçün müraciət etsəniz, çox güman ki, siz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə geri qaytarılacaqsınız.

Əgər hansısa Aİ+ ölkəsində olmağınız tələb edildiyi halda siz başqa bir Aİ+ ölkəsindəsinizsə, azadlığınız məhdudlaşdırıla bilər və siz daha az dəstək ala bilərsiniz.



## SAXLANILMA NƏ DEMƏKDİR?

Saxlanılma dedikdə, sərbəst tərk edə bilməyəcəyiniz müəyyən bir təsisata yerləşdirilməyiniz nəzərdə tutulur. Sizi saxlamaq üçün səlahiyyətli orqanların əsaslı səbəbi olmalıdır. Onlar əmin olmalıdırlar ki, sizin məsələnizdə başqa seçim mümkün deyil. Səlahiyyətli orqanlar qərar verməzdən əvvəl şəxsi vəziyyətinizi dəyərləndirəcəklər. Saxlanılma üçün səbəblər bunlar ola bilər, məsələn:



- saxlanma olmadan sığınacaq üçün ərizənizin vacib aspektlərini (məsələn, şəxsiyyətinizi) təsdiqləmək mümkün deyil
- siz müəyyən bir yerdə qalmaq öhdəliyinizə əməl etməmisiniz və ya risk var ki, siz yenidən qaçacaqsınız və səlahiyyətli orqanlar sizinlə əlaqə qura bilməyəcəklər
- sığınacaq üzrə ərizənizin nəzərdən keçirilməsinə görə məsuliyyət daşıyan Aİ+ ölkəsinə göndərilmə ilə bağlı qərar almısınız və risk var ki, siz göndərilmədən əvvəl qaçacaqsınız
- siz təhlükəsizlik riski yaradırsınız.

Əgər saxlanılsanız, bu qərara qarşı şikayət verə, eləcə də pulsuz hüquqi yardım və təmsilçilik istəyə bilərsiniz.

**VACİBDİR!** İcazə olmadan başqa bir Aİ+ ölkəsinə səfər etsəniz, gələcəkdə bu, saxlanılma riskinizi artıracaq.

## SƏLAHİYYƏTLİ ORQANLAR ƏRİZƏNİZİ HANSI Aİ+ ÖLKƏSİNİN NƏZƏRDƏN KEÇİRƏCƏYİNƏ NECƏ QƏRAR VERİRLƏR?

Bu sizin Aİ+ ölkəsinə beynəlxalq himayə üçün ilk müraciətinizdirsə, müəyyən Aİ+ ölkəsinin ərizənizi nəzərdən keçirməkdən məsul ola biləcəyinin bir neçə səbəbi var.

### 1) Qohumluq əlaqələri



Birinci və ən vacib səbəb, yaxın ailə üzvlərindən birinin artıq başqa bir Aİ+ ölkəsində beynəlxalq himayə ilə təmin edilməsi və ya hazırda beynəlxalq himayə üçün müraciət etməsidir və siz beynəlxalq himayə üçün müraciətinizə baxılmadan əvvəl onlara yenidən qovuşmalısınız.

Aşağıda qeyd olunanlar yaxın ailə üzvləri hesab olunur:

- əriniz və ya arvadınız
- daimi münasibətdə olduğunuz subay partnyorunuz
- övladınız (yaşı 18-dən az olan və subay).

**VACİBDİR!** Aİ+ ölkələri bölgəsinə daxil olmazdan əvvəl siz həmin şəxslə qohumluğunuzun olduğunu ən qısa müddətdə sübut etməlisiniz. Vətəninizdən etdiyiniz səfər bu müddətə daxil ola bilər.

Əgər başqa bir Aİ+ ölkəsində yaşayan ailə üzvünüz varsa, məlumat verməyin ən yaxşı yolu "**qohum axtarışı şablonu**" adlı bir formanı doldurmaqdır. Əgər başqa bir Aİ+ ölkəsində yaşayan ailə üzvünüz varsa və bu formanı hələ almamısınızsa, məmurla və ya hüquq məsləhətçinizlə danışın. Onlar həmçinin formanı doldurmağınıza kömək edə bilərlər.

Ailə üzvlərinə yenidən qovuşmaq imkanı haqqında daha ətraflı məlumatı "**Başqa bir Aİ+ ölkəsində ailənizin olduğunu sübut etmək üçün hansı dəlilləri təqdim edə bilərsiniz**?" adlı bölmədə tapa bilərsiniz.

## 2) Müəyyən Aİ+ ölkəsinə giriş icazəsi

Aİ+ ölkəsi bu hallarda ərizənizi nəzərdən keçirməkdən məsul ola bilər:




- müəyyən bir Aİ+ ölkəsində viza və ya yaşayış icazəniz var
- siz vizasız daxil ola biləcəyiniz bir Aİ+ ölkəsinə daxil olmusunuz, çünki vətəninizin həmin ölkə ilə müqaviləsi var.

## 3) Təhsil ixtisası və ya diplom



- Ən azı bir tədris ili ərzində Aİ+ ölkəsindəki təhsil müəssisəsində əyani təhsil aldıqdan sonra ixtisas və ya diplom almısınız.

## 4) Müəyyən Aİ+ ölkəsinə qeyri-qanuni giriş

Başqa bir Aİ+ ölkəsi bu hallarda ərizənizi nəzərdən keçirməkdən məsul ola bilər:



- Aİ+ ölkələrindən birinin xarici sərhədini icazəsiz keçmisiniz



- Avropaya səfər etdiyiniz zaman Aİ+ ölkəsinin səlahiyyətli orqanları tərəfindən dənizdə xilas edilmisiniz



- Aİ+ ölkələrindən birində hava limanının tranzit zonasında beynəlxalq himayə üçün müraciət etmisiniz.

## 5) Qayğıya ehtiyacı olan ailə üzvünün ona qulluq edən şəxsə yenidən qovuşması

Siz başqa bir Aİ+ ölkəsində olan ailə üzvünün qayğısından asılısınız və ya Aİ+ ölkəsində sizin qayğınızdan asılı olan ailə üzvünüz var.



Qayğıdan asılı olan ailə üzvünün aşağıdakı səbəblərlə əlaqədar köməyə ehtiyacı ola bilər:

- hamiləlik
- yeni doğulmuş uşağının olması
- ciddi ruhi və ya fiziki xəstəlik
- ağır əlillik
- ağır psixoloji travma
- yaşlılıq.

Qayğıdan asılılıq hallarında, asılı şəxsə qulluq edə biləcəyinizi və ya ailə üzvünün sizə qulluq edə biləcəyini təsdiq edə bilməlisiniz.

## 6) Humanitar səbəblər

Ərizənizin məhz müəyyən Aİ+ ölkəsi tərəfindən keçirilməsinin humanitar səbəbi ola bilər. Bu, aşağıdakı qeyd olunanlara əsaslana bilər:

- ailə mülahizələri
- sosial mülahizələr
- mədəni mülahizələr.

Yuxarıda göstərilən səbəblərə görə ərizənizin başqa bir Aİ+ ölkəsi tərəfindən nəzərdən keçirilməsi istənilə bilər, lakin son qərarı bu ölkənin səlahiyyətli orqanı verəcək.

## ƏRİZƏNİZİ HANSI Aİ+ ÖLKƏSİNİN NƏZƏRDƏN KEÇİRƏCƏYİNİ DAHA YAXŞI ANLAMAQ ÜÇÜN SİZİNLƏ MÜSAHİBƏ APARILA BİLƏR

Sığınacaq verilməsi üçün ilk dəfə müraciət edirsinizsə, səlahiyyətli orqanlar sizinlə şəxsi müsahibə təşkil etməlidirlər.

**VACİBDİR!** Bu, sığınacaq verilməsi ilə bağlı müsahibə olmayacaq. Müsahibənin məqsədi ərizənizi hansı Aİ+ ölkəsinin nəzərdən keçirməli olduğunu müəyyən etməkdir.

**Bu müsahibənin dörd əsas məqsədi var:**

- səlahiyyətli orqanlara məsul Aİ+ ölkəsi üzrə qərar verməyə kömək edəcək məlumatları toplamaq
- məsul Aİ+ ölkəsinin müəyyən edilməsi prosesinin necə həyata keçirildiyi barədə istənilən sualları verməyinizə imkan yaratmaq
- bu kitabçada olan hər hansı məlumatla bağlı istənilən sualları verməyinizə imkan yaratmaq
- başqa bir Aİ+ ölkəsinə transfer edilməməyiniz və ya bu ölkədə qalmağınıza icazə verilməsi üçün hansısa səbəblərin olub-olmadığını soruşmaq.

Müsahibə yaxşı başa düşdüyünüz dildə keçiriləcək. Müsahibə edən və tərcüməçinin müəyyən cinsdən olmasını istəyirsinizsə, lütfən, müsahibəyə çağırılarkən bunu bildirin. Danimarka İmmiqrasiya Xidməti imkan daxilində bunu dəstəkləməyə çalışacaq.



Təqdim etdiyiniz məlumatların heç biri vətəninizin hökuməti və ya səlahiyyətli orqanları ilə paylaşılmayacaqdır.

Müsahibə zamanı sizə aydın olmayan bir məqam olsa, immiqrasiya məmurundan soruşa bilərsiniz. Həm sizin, həm də məmur üçün hər şeyi başa düşməyiniz çox vacibdir, ona görə də sual verməyiniz həmişə xoş qarşılanır.



Müsahibənin səs yazısı qeydə alınacaq və danışılanların yazılı xülasəsi sizə göstəriləcək.

Əgər şəxsi müsahibənizin yazılı xülasəsini aldıqdan sonra hər hansı bir məlumatın səhv olduğunu düşünsəniz və onu dəyişdirmək istəsəniz, bunu tələb edə bilərsiniz.

Siz Danimarka İmmiqrasiya Xidməti ilə www.nyidanmark.dk/KontaktAsyl və ya aşağıdakı QR kodu ilə əlaqə saxlaya bilərsiniz.

Lazım olsa, müsahibədən sonra da əlavə sənədlər təqdim edə və ya başqa bir Aİ+ ölkəsinə transfer edilməməyinizin səbəblərini göstərə bilərsiniz.

Əgər hələ də təqdim etmədiyiniz məlumatlar və ya sənədləriniz varsa, onları səlahiyyətli orqanlara təqdim etməlisiniz.

Danimarka İmmiqrasiya Xidmətinə məlumat və ya sənədlər təqdim etməlisiniz: Orijinal sənədlər Danimarka İmmiqrasiya Xidmətinə göndərilməlidir, Farimagsvej 51A, 4700 Næstved.

Digər sənədlər və məlumatlar elektron şəkildə www.nyidanmark.dk/KontaktAsyl saytında və ya aşağıdakı QR kodundan istifadə etməklə təqdim edilə bilər:

# MÜSAHİBƏ HƏMİŞƏ KEÇİRİLİRMİ?

Sığınacaq verilməsi üçün ilk dəfə müraciət edirsinizsə, səlahiyyətli orqanlar sizinlə şəxsi müsahibə aparmamaq qərarına gələ bilərlər, əgər:

- ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsi artıq məlumdursa
- ərizənizi nəzərdən keçirməkdən hansı Aİ+ ölkəsinin məsul olduğuna qərar vermək üçün onların artıq kifayət qədər məlumatı var
- bundan əvvəl müsahibədə iştirak etməmisiniz və səlahiyyətli orqanlara gəlməməyinizin səbəbini bildirməmisiniz
- səlahiyyətli orqanlarla əlaqə saxlaya bilmədiniz.

Müsahibə təşkil edilməyibsə, bunu tələb edə bilərsiniz. Əgər məmurlar sizin məsələnizi həll etmək üçün kifayət qədər məlumata sahib olduqlarını düşünürlərsə, bu tələbdən imtina edə bilərlər, lakin müsahibənin keçirilməməsinin səbəbini mütləq təqdim etməlidirlər.

Əgər müsahibə üçün müraciət etmək istəyirsinizsə, Danimarka İmmiqrasiya Xidməti ilə www.nyidanmark.dk/KontaktAsyl ünvanında və ya aşağıdakı QR kodundan istifadə etməklə əlaqə saxlaya bilərsiniz. Müsahibə istəməyinizin səbəbini yazmağı unutmayın.

## BAŞQA BİR Aİ+ ÖLKƏSİNDƏ AİLƏNİZİN OLDUĞUNU SÜBUT ETMƏK ÜÇÜN HANSI DƏLİLLƏRİ TƏQDİM EDƏ BİLƏRSİNİZ?

Ailə üzvünüz haqqında məlumat verməyin ən yaxşı yolu "**qohum axtarışı şablonu**" formasını doldurmaqdır.

Bundan əlavə, qohumluğunuzu təsdiq edə biləcək istənilən rəsmi dövlət sənədlərini təqdim edin. Siz həmçinin digər sübut növlərini, məsələn, ailə üzvünüzlə əlaqə saxladığınızı göstərmək üçün fotoşəkilləri, e-poçt məktublarını və ya mesajları sübut kimi təqdim edə bilərsiniz.



Qohumluğunuza dair heç bir sübutunuz yoxdursa, səlahiyyətli orqanlar qohum olduğunuzu sübut etmək üçün DNT testi etməyinizi istəyə bilərlər.

Ailə üzvünüzə yenidən qovuşmağınız yalnız hər ikiniz bunu istədiyinizi yazılı şəkildə bəyan etdiyiniz təqdirdə mümkündür. Mümkünsə, bu sənədi ingilis dilində təqdim etməyə çalışmalısınız.

Bu məlumatları mümkün qədər tez hazırlamağa başlayın.




Ailənin yenidən birləşməsi prosesi ilə bağlı əlavə sualınız varsa və ya məsləhətə ehtiyacınız varsa, hüquq məsləhətçisindən kömək istəyə bilərsiniz.

Başqa bir Aİ+ ölkəsində ailə üzvləriniz varsa, lakin onlarla əlaqənizi itirmisinizsə, onları tapmaqda sizə kömək edə biləcək təşkilatlar mövcuddur.

Bu təşkilatlarla əlaqə saxlamaq üçün aşağıdakı məlumatlardan istifadə edə bilərsiniz:
Qırmızı Xaç Axtarış Xidməti: tracing@rodekors.dk və ya telefon 35 25 92 00.

## BU PROSES NƏ QƏDƏR VAXT APARACAQ?



Ölkələr arasında kommunikasiya adətən **1 ay yarımdan 3 ayadək** davam edir, lakin məsələnizdən asılı olaraq bu, **daha çox vaxt ala bilər**.



Başqa bir Aİ+ ölkəsi ərizənizi nəzərdən keçirəcəyini təsdiqləyərsə, siz, transferinizlə bağlı tələbin onlar tərəfindən qəbul edildiyi tarixdən etibarən **6 ay ərzində** transfer ediləcəksiniz.




Əgər tələb başqa bir Aİ+ ölkəsində ailə üzvünün olması səbəbindən edilibsə, transferiniz **prioritetlə icra ediləcək**.



Əgər siz hazırda **saxlanılırsınızsa və ya gələcəkdə saxlanılacaqsınızsa**, məsələnizə **təcili surətdə baxılacaq**. Transferiniz **5 həftə** ərzində təşkil edilməlidir. Transfer 5 həftə ərzində həyata keçirilmədiyi halda, siz saxlandığınız yerdən buraxılacaqsınız. Bununla belə, transferiniz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsi tələbinizi qəbul etdiyi tarixdən etibarən **6 ay ərzində** təşkil ediləcək.

Cinayət törətdiyinizə görə həbsdəsinizsə, transfer üzrə vaxt limiti **maksimum 1 ilədək artırıla bilər**.




**VACİBDİR!** Qaçdığınız, səlahiyyətli orqanlardan gizləndiyiniz və ya transferin təşkilində onlarla əməkdaşlıq etmədiyiniz halda **transfer üzrə vaxt limiti maksimum 3 ilədək artırıla bilər**.

## ƏGƏR BAŞQA BİR Aİ+ ÖLKƏSİNƏ BEYNƏLXALQ HİMAYƏ ÜÇÜN ARTIQ MÜRACİƏT ETMİSİNİZSƏ, NƏ OLACAQ?

Siz yalnız bir Aİ+ ölkəsinə beynəlxalq himayə üçün müraciət edə bilərsiniz. Başqa bir Aİ+ ölkəsinə beynəlxalq himayə üçün artıq müraciət etmisinizsə, siz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə geri qaytarılacaqsınız.

Ərizənizi nəzərdən keçirməkdən başqa bir Aİ+ ölkəsinin məsul olduğunu təsdiqləyən məlumatlar varsa, həmin ölkəyə bildiriş göndəriləcək. Həmin Aİ+ ölkəsi ərizənizi nəzərdən keçirəcəyini təsdiq edərsə, siz hansı Aİ+ ölkəsinə transfer ediləcəyinizi bildirən **transfer qərarı** ilə təmin ediləcəksiniz.

Əgər bu, beynəlxalq himayə üçün ilk müraciətiniz deyilsə və ya artıq başqa bir Aİ+ ölkəsinin ərizənizi nəzərdən keçirməkdən məsul olduğuna qərar verilibsə, səlahiyyətli orqanlar sizinlə şəxsi müsahibə keçirməyə bilərlər.

Lakin sizin başqa bir Aİ+ ölkəsinə transfer edilməməyiniz və ya bu ölkədə qalmağınıza icazə verilməsi üçün səbəbləri izah etməyə imkanınız olacaq.

Bu məlumatın təqdim edilməsi yolu barədə məlumatı aşağıda tapa bilərsiniz: Danimarka İmmiqrasiya Xidməti ilə www.nyidanmark.dk/KontaktAsyl ünvanında və ya aşağıdakı QR kodundan istifadə etməklə əlaqə saxlayın:

## QƏRAR VERİLDİKDƏN SONRA NƏ BAŞ VERİR?

Başqa bir Aİ+ ölkəsinə köçmək üçün transfer qərarı aldığınız halda bəzi hüquqlarınız ləğv ediləcək, məsələn:

- siz **bir çox xidmət və dəstək növünü əldə etməyəcəksiniz**
- **işləməyinizə** və ya **kurslara qatılmağınıza icazə verilməyəcək**.





Transfer, Aİ+ ölkəsi ərizənizi nəzərdən keçirəcəyini təsdiq və ya qəbul etdiyi tarixdən etibarən 6 ay ərzində həyata keçirilməlidir.

Əgər siz saxlanılırsınızsa, məsələnizə təcili surətdə baxılacaq. Transferiniz 5 həftə ərzində təşkil edilməlidir. Transfer 5 həftə ərzində həyata keçirilmədiyi halda, siz saxlandığınız yerdən buraxılacaqsınız.

İstənilən halda transferiniz, Aİ+ ölkəsi ərizənizi nəzərdən keçirəcəyini təsdiq və ya qəbul etdiyi tarixdən etibarən 6 ay ərzində həyata təşkil ediləcək.

Cinayət törətdiyinizə görə həbsdəsinizsə, transfer üzrə vaxt limiti maksimum 1 ilədək artırıla bilər.

**VACİBDİR!** Qaçdığınız və ya səlahiyyətli orqanlarla əməkdaşlıq etmədiyiniz halda **transfer üzrə vaxt limiti maksimum 3 ilədək artırıla bilər**.

## TRANSFER QƏRARI İLƏ RAZILAŞMADIĞINIZ HALDA NƏ BAŞ VERİR?



Ərizənizin nəzərdən keçirilməsindən başqa bir Aİ+ ölkəsinin məsul olacağına qərar verilərsə, siz **transfer qərarı** alacaqsınız. Bu qərarda sizə hansı ölkəyə transfer ediləcəyiniz barədə məlumat veriləcək.

Transfer qərarı ilə razı deyilsinizsə, səbəblərinizi məhkəməyə təqdim edə bilərsiniz. Buna "apellyasiya şikayəti vermək" deyilir. Qərara qarşı apellyasiya şikayəti verdiyiniz zaman son qərar məhkəmə və ya tribunal tərəfindən veriləcəkdir.

Transfer qərarından apellyasiya şikayəti vermək üçün yalnız üç səbəb var:

- siz iddia edirsiniz ki, bu konkret Aİ+ ölkəsinə transfer edilməyiniz insan hüquqlarınızı pozacaq
- transfer qərarı verildiyi zaman mövcud olmayan məlumatlar ortaya çıxıb, hansı ki, həmin qərara təsir göstərə bilərdi
- başqa bir Aİ+ ölkəsində qohumlarınız var və əslində siz onlara yenidən qovuşmalı idiniz.



Öz hüquq məsləhətçinizi tutmağa imkanınız yoxdursa, siz apellyasiya şikayətinin verilməsində sizə pulsuz kömək edəcək hüquq məsləhətçisi ilə təmin ediləcəksiniz.

Anladığınız dildə danışan tərcüməçi sizə bu proses boyunca dəstək olacaq.

## DAYANDIRICI TƏSİR VƏ MAHİYYƏTİ ÜZRƏ BAXILMA EYNİ VAXTDA TƏTBİQ EDİLDİYİ HALLARDA APELLYASİYA ŞİKAYƏTİNİN VERİLMƏSİ HAQQINDA BİLMƏLİ OLDUQLARINIZ

Apellyasiya şikayətinin verilməsi üzrə vaxt limiti, harada və necə veriləcəyi barədə məlumat sizə təqdim edilən transfer qərarında göstəriləcək.

Siz başqa bir Aİ+ ölkəsinə transfer qərarı ilə razı olmamağınızın səbəbini və ya səbəblərini qeyd etməlisiniz.

Siz həmçinin apellyasiya şikayətiniz davam edərkən ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə transfer edilməməyinizin səbəbini və ya səbəblərini də qeyd etməlisiniz.

İlk öncə məhkəmə **1 ay** ərzində apellyasiya şikayətiniz davam edərkən həmin ölkədə apellyasiya şikayətinin nəticəsini gözləyə bilib-bilməcəyinizə qərar verəcək. Buna dayandırıcı təsir əsasında apellyasiya şikayəti deyilir.

Məhkəmə bu ölkədə apellyasiya şikayətinin nəticələrini gözləyə bilməyəcəyinizə qərar verərsə, apellyasiya şikayətiniz davam edərkən siz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə transfer ediləcəksiniz.

Əgər apellyasiya şikayətiniz davam edərkən məhkəmə bu ölkədə qalmağınıza icazənin verilməsinə qərar verərsə, o, dayandırıcı təsir üzrə qərar verildiyi tarixdən etibarən 1 ay ərzində ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə transfer edilib-edilməyəcəyiniz barədə yekun qərar verməyə çalışacaq.

Apellyasiya şikayətiniz qəbul edilmədiyi halda siz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə transfer ediləcəksiniz. Transfer məhkəmənin yekun qərarını verdiyi tarixdən etibarən 6 ay ərzində baş verməlidir.

Əgər siz hazırda saxlanılırsınızsa və ya gələcəkdə saxlanılacaqsınızsa, məsələnizə təcili surətdə baxılacaq. Transferiniz 5 həftə ərzində təşkil edilməlidir. Transfer 5 həftə ərzində həyata keçirilmədiyi halda, siz saxlandığınız yerdən buraxılacaqsınız. Bununla belə, transferiniz ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsi tələbinizi qəbul etdiyi tarixdən etibarən 6 ay ərzində təşkil ediləcək.

**VACİBDİR!** Siz səlahiyyətli orqanlarla əməkdaşlıq etməli və ərizənizi nəzərdən keçirməkdən məsul olan Aİ+ ölkəsinə səfər etməlisiniz.

## HANSI ŞƏXSİ DATA TOPLANILACAQ?



Qaldığınız Aİ+ ölkəsində məmurlar aşağıdakılar da daxil olmaqla müəyyən məlumatları toplayacaqlar:

- Şəxsi məlumatlarınızı və sizinlə səfər edən ailə üzvlərinin məlumatlarını (ad, vətəndaşlıq, doğum tarixi və yeri). Əvvəllər başqa adlardan və məlumatlardan istifadə etmisinizsə, onlar sizə bununla bağlı sual verəcəklər.
- Şəxsiyyət və yol sənədləriniz haqqında məlumatı.
- Şəxsiyyətinizi təsdiq edə biləcək hər hansı digər məlumatı, məsələn, barmaq izlərinizi.
- Başqa bir Aİ+ ölkəsində yaşayan hər hansı bir ailə üzvünlə bağlı təfərrüatları, məsələn, onların şəxsi məlumatlarını, son əlaqə qurduğunuz vaxtı, yeri, onların hüquqi statusunu.
- Sizin məsələnizə bu uyğundursa, Aİ+ ölkələrində yaşamağa imkan verən sənədləriniz haqqında ətraflı məlumatı.
- Aİ+ ölkəsində bir ildən çox təhsil aldığınızı təsdiqləyən sənədlər haqqında məlumatı.
- Bu ölkəyə gəlmək üçün hansı ölkələrdən keçdiyiniz barədə məlumatı.
- Şəxsi səbəbləriniz barədə məlumatı.
- Beynəlxalq himayə ilə bağlı bundan əvvəl etdiyiniz müraciətlərin tarixi və bu müraciətlərə baxılmanın nəticələri.

## ŞƏXSİ DATANIZA AİD HANSI HÜQUQLARINIZ VAR?

Səlahiyyətli orqanlara verdiyiniz hər hansı bir datanı əldə etmək hüququnuz var.
Sizə aid hər hansı şəxsi datanın səhv olduğunu və ya qanunsuz emal edildiyini düşünürsünüzsə, data nəzarətçisindən şəxsi datanıza giriş tələb edə və səhv datanı düzəltməsini və ya qanunsuz emal edilən datanı silməsini xahiş edə bilərsiniz.

Aşağıdakı məlumatlardan istifadə edərək bu ölkədəki data nəzarətçisi ilə əlaqə saxlaya bilərsiniz.

www.nyidanmark.dk/da/Kontakt-os/Kontakt-Udl%C3%A6ndingestyrelsen/Kontakt-DPO

Bu kitabça yalnız məlumatlandırma məqsədləri üçün nəzərdə tutulub. O özü heç bir hüquq və ya öhdəlik yaratmır. Bu materialın əsas hissəsini Avropa İttifaqının Sığınacaq Agentliyi (EUAA) təqdim edib, və bu kitabçanın surətinin çıxarılmasına və dəyişdirilməsinə EUAA tərəfindən yalnız Aİ-nin üzvü olan dövlətlərə icazə verilir. Aİ-nin üzvü olan dövlətlər və ya digər səlahiyyətli üçüncü şəxslər tərəfindən bu kitabçaya daxil edilən məlumatların dəqiqliyi, məzmunu, tamlığı, qanuniliyi və ya etibarlılığına görə EUAA heç bir məsuliyyət və ya cavabdehlik daşımır. Bu kitabçada mövcud olan məlumatlardan istifadəyə görə nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025